Əvvəli 2(12), 2008 №-də

# Yüngül sənayedə ştrixkodlardan istifadə

Yüngül sənayedə qarışıq standart vahidlərin kodlaşdırılmasında xüsusi hallara ansambl və kost - yumlardan başqa aşağıdakılar da aiddir:

**b) məhsulun partiyası**

EAN nömrəsi olan məhsulun partiyası onun ayrı-ayrı hissələrinə verilən kodlardan asılı olmaya - raq, partiyanın özünü identifikasiya edir.

**c) modellər**

3-6 ay və 1 yaşlı uşaqlar üçün şalvarın 3 müxtəlif rəngdə nömrələmə nümunəsi.

| | | | |
|---|---|---|---|
| Model | Göy | 3 ay | 4761234123410 |
| | | 6 ay | 4761234123427 |
| | | 1 il | 4761234123434 |
| | Qırmızı | 3 ay | 4761234123441 |
| | | 6 ay | 4761234123458 |
| | | 1 il | 4761234123465 |
| | Sarı | 3 ay | 4761234123472 |
| | | 6 ay | 4761234123489 |
| | | 1 il | 4761234123496 |




## *Nömrəverilmə prosesinin idarə edilməsi*

### Əmtəənin modifikasiyası

Əgər malın yeni variantı ləğv və ya əvvəlki variantla əvəz edilirsə, onda yeni nömrəni aşağıdakı hallarda vermək lazımdır:

- *əgər fabrikin markası (brand name) dəyişdirilibsə;*
- *əgər əmtəənin adı dəyişdirilibsə;*
- *əgər əmtəənin tərkib hissələrinin sayı dəyişdirilibsə;*
- *əgər malın tərkibində və ya onun xassələrində dəyişiklik varsa, bu da nəticədə kommersiya təkliflərində əks oluna bilər.*

### Fabrik markasının sahibinin dəyişilməsi

*Əgər şirkətlər birləşirsə və ya alınırsa, əmtəə nömrələri dəyişməz olaraq qalır.*

### Köhnə EAN nömrələrindən istifadə

*Əgər mal istehsalatdan çıxıbsa, onun EAN nömrəsi 3 il ərzində heç bir mala verilmir. Malın yeni modeli yeni EAN kodla markalanır.*

### Əmtəənin yarlığında zəruri olan informasiya

Ştrixli koddan başqa, aşağıdakı məlumat yarlığa vurulmalıdı :

- *ölçüsü və modeli*
- *əmtəənin adı*
- *əmtəənin tərkibi*

Bundan əlavə son alıcı üçün satış qiymətlərinə və distribüterə isti - nad qeyd olunmalıdır.

